ΛΙ7Α ΊSS

# AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ

## Ə M R

№ İ-58

Bakı şəhəri "19" mart 2020 il

**"Koronavirus" infeksiyası (COVİD-19) ilə bağlı əlavə tədbirlər barədə**

"Koronavirus" (COVİD-19) infeksiyasına qarşı mübarizənin təşkil edilməsi ilə bağlı tapşırıqlar barədə Azərbaycan Respublikası Baş Nazirinin 16 mart 2020-ci il tarixli 1/384 nömrəli məktubu icra üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə daxil olmuşdur. Həmin tapşırıqların icrasını təmin etmək məqsədi ilə **əmr edirəm:**

**1**. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Aparatında, Nazirliyin dövlət xidməti və agentliklərində, onun tabeliyində olan qurumlarında və yerli bölmələrində bu əmrin qüvvədə olduğu müddətdə:

1.1. iclaslar, müşavirələr və toplantıların yalnız telefon rabitəsi (selektor), mobil və internet vasitəsilə keçirilməsinə üstünlük verilsin;

1.2. nəzərə alınsın ki, Azərbaycan Respublikası Baş Nazirinin 16 mart 2020-ci il tarixli 1/384 nömrəli məktubundakı "*əməkdaşların məsafədən işləmələri məsələsinə baxılması*" və " *60 yaşdan yuxarı şəxslər və öhdəsində azyaşlı uşağı olan qadınların işə davamiyyətinə güzəştli şərtlər tətbiq edilməsi*"nə dair tapşırıqlarının icrası ilə əlaqədar Maliyyə Nazirliyinin 18 mart 2020-ci il tarixli İ-54 nömrəli əmrində müvafiq göstərişlər verilmişdir;

1.3. işçilərin və onların ailə üzvlərindən birinin qrip, soyuqdəymə, halsızlıq və digər bu kimi halları olduğu təqdirdə həmin işçilərin işə çıxması qadağan edilsin;

1.4. xüsusi zərurət olduğu hallar istisna olmaqla, bütün ezamiyyətlər dayandırılsın və ezamiyyətə xüsusi zərurət olduğu hallarda Nazirliyin rəhbərliyinə əsaslandırılmış rəsmi müraciət edilsin;

1.5. əməkdaşların xarici ölkələrə şəxsi səfərləri dayandırılsın;

1.6. vətəndaşların qrup və fərdi surətdə qəbulları təxirə salınsın.

**2**. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Aparatının rəhbərinə tapşırılsın:

2.1. Nazirliyin Aparatında vətəndaş müraciətlərinin yalnız elektron poçt (office@maliyye.gov.az) və telefon rabitəsi (+994 12 404-46-99 (daxili195)) vasitəsilə qəbul edilməsini təmin etsin;

2.2. qaynar xətlərin fasiləsiz fəaliyyətini təmin etsin;

2.3. bu əmrdə nəzərdə tutulmuş tədbirlər barədə Maliyyə Nazirliyinin rəsmi internet səhifəsi vasitəsi ilə vətəndaşların məlumatlandırılmasını təmin etsin.

**3.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin dövlət xidməti və agentliklərinin, onun tabeliyində olan qurumların və yerli bölmələrinin rəhbərlərinə tapşırılsın:

3.1. vətəndaşların müraciətlərinin fasiləsiz qəbulunu yalnız elektron poçt və telefon rabitəsi vasitəsilə həyata keçirsinlər, bu məqsədlə elektron poçt ünvanı və telefon nömrələri müəyyən edərək qaynar xətlərin fasiləsiz fəaliyyətini təmin etsinlər;

3.2. vətəndaş müraciətlərinin elektron poçt və telefon rabitəsi vasitəsilə qəbul edilməsi üçün məsul əməkdaşlar müəyyən etsinlər.

**4.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Aparatında, Nazirliyin dövlət xidməti və agentliklərində, onun tabeliyində olan qurumlarında və yerli bölmələrində çalışan bütün əməkdaşlara tapşırılsın ki, sosial məsuliyyətli davranmaqla, həmçinin xüsusi zərurət olmadan digər şəxslərlə təmasda olmamaqla virusun yayılmasının qarşısının alınmasına dəstək olacaq hər cür ehtiyat tədbirləri görsünlər.

**5.** Bu əmrin icrasına nəzarət Nazirin birinci müavini İlqar Fəti-zadəyə, Nazir müavini Azər Bayramova və Aparatın rəhbəri Cavanşir Yusifova həvalə edilsin.

**6**. Bu əmr imzalandığı gündən qüvvəyə minir.

**Nazir** **Samir Şərifov**